# Erməni vandallarının bərbad günə qoyduğu dini abidələr bərpa edilir

***Ölkəmizdə dini abidələrə, dini-mənəvi dəyərlərimizə dövlət səviyyəsində çox böyük diqqət və qayğı var. Bu gün dövlət-din münasibətləri çox yüksək səviyyədə tənzimlənir. Azərbaycanda qanunla din dövlətdən ayrı olsa da, dinimizin inkişafına, təbliğinə, məscidlərə, dini ocaqlara dövlət diqqətlə yanaşır, qayğı göstərir. Azərbaycanda dövlət-din münasibətləri başqa ölkələrə bir örnəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dinə xüsusi diqqət və qayğısı var.***

Hazırda Azərbaycanda məscidlərin, dini məbədlərin, dini ocaqların bərpasına böyük önəm verilir. Ölkə başçısının müsəlman dünyasının müqəddəs ünvanı Məkkəyə ziyarəti onun dinimizə bəslədiyi sonsuz sevginin, ehtiramın bir nümunəsidir. Dövlət səviyyəsində işğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına xüsusi diqqət göstərilir. Eyni zamanda, dövlət başçısı və birinci xanım tərəfindən Ağdam, Şuşa məscidləri ziyarət edilib, Mehriban Əliyeva özü şəxsən o məscidlərə Quran gətirib. Şübhəsiz azad olunan ərazilərimizdə Heydər Əliyev Fondu həm tarixi abidələrin, həm də İslam dini abidələrinin bərpasında önəmli rol oynayır, böyük işlər görür.

Erməni vandalları işğal dövründə məscidlərimizi, ziyarətgahlarımızı, qəbirüstü abidələrimizi məhv ediblər. İşğalçılar bu illər ərzində yer adlarımızı, toponimlərimizi dəyişdirib, uydurma adlar qoyub, tariximizə iddia edə bilmədikləri məqamlarda isə barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıdıblar. Xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür namərdliyə əl atıblar.

Azərbaycanın din sahəsindəki uğurlu dövlət siyasətinə qərəzli yanaşmayan, onun multikultural və tolerant ölkə olmasına şahidlik edən hər kəs bilməlidir ki, tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət kimi bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilməkdədir. Beləliklə, 30 ilə yaxın erməni əsirliyində qalmış Qarabağdakı dini abidələrimiz üçün durğunluq dövrü bitib, intibah mərhələsi başlayıb.



Vətən müharibəsində erməni talanına son qoyuldu. İyirmi yeddi ildən sonra Ağdam Cümə məscidində yenidən azan sədası yüksəldi. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva həmin məscidi ziyarət etmişlər. Dövlət başçısı Məkkədən gətirdiyi müqəddəs "Qurani-Kərimi" məscidə hədiyyə etmiş və demişdir: "Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq".

Bundan sonra Ağdam məscidinin əsaslı təmiri və bərpası işlərinə start verildi və indi məscid istifadəyə yararlıdır.

Dövlət başçımız hər dəfə işğaldan azad edilmiş rayonlarda olarkən məscidləri ziyarət edir, onların vəziyyəti ilə maraqlanır. Ölkə başçısı erməni havadarlarına müraciət edərək demişdir: "Gəlsinlər Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş torpaqlarımıza, görsünlər ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi?"

Prezident beynəlxalq tədbirlərdə dəfələrlə bildirib ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz.

İşğal altında qalmış bütün rayon və kəndlərimizdəki məscidlər, ziyarətgahlar və digər dini abidələr dağıdılıb pis günə qoyulub. Zəngilandakı məscid bunlardan biridir. Dağıdılmış məsciddə ermənilər donuz saxlayırdılar. İndi həmin məsciddə bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirir. Cənab Prezident bu məsciddə olarkən bildirmişdir ki, tezliklə bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılacaq. Xalqımızın min illərin o tayından adlayıb gələn tarixi kökləri qorunacaq və məkrli ermənilərin tarix səhifələrindən silməyə çalışdığı həqiqətlər yenidən bərpa edilərək, Azərbaycan xalqının zəngin xəzinəsi kimi gələcəyə ötürüləcək.

Qubadlıdakı Məmər kənd məscidi XVIII əsrdə inşa edilmişdir. 1993-cü il Qubadlı rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra məscid tamamilə dağıdılmışdır. Rayonun Dondarlı, Dəmirçilər kəndlərindəki məscidlər də dağıdılmışdır.

Cənab Prezident Şuşada olarkən Saatlı məscidini ziyarət etmişdir. Dövlət başçısı buradakı çıxışında bildirmişdi ki, Məkkədən gətirilmiş "Qurani-Şərif"i Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da Məkkədən gətirdiyim "Qurani-Şərif"i bağışlayacağam. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik.

Azərbaycanda bütün dinlərin məbədləri qorunur . Bunu müstəqillik tariximiz də müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri – kilsələr, sinaqoqlar, erməni kilsələri, o cümlədən Bakının mərkəzindəki erməni kilsəsi dövlət tərəfindən qorunur. Bəs ermənilər nə ediblər? Prezident çıxışlarından birində bu suala çox müdrik cavab verib: "Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər. Beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox".

Ermənilər və onların havadarları yalan danışmaqdan utanmırlar.Yuxarı Gövhər ağa məscidini, guya, bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Əslində, bu təmir riyakarlıq idi. Azərbaycanın icazəsi olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Onsuz da biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb.

Təəssüf doğuran budur ki, Türkiyə və Pakistan istisna olmaqla, müsəlman dövlətləri bu məscidlərin erməni vandalları tərəfindən bərbad günə qoyulmasına heç bir reaksiya verməmişlər. Hətta, beynəlxalq təşkilatlar bu məsələyə etinasız yanaşaraq susmuşlar.

Biz isə bərpa edirik, yenidən qururuq. Müsəlman dövləti kimi öz missiyamızı şərəflə yerinə yetiririk. Tanrı köməyimiz olsun!

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 17 iyul.- S.7.